UOT 94; UOT 94(479.24)

FATMA BETÜL AYDEMİR BAŞ
Bakı Dövlət Üniversiteti,
Türk xalqları tarixi kafedrasının doktorantı
fbetulaydemir@gmail.com

SSRİ-DƏ "SİNATRA DOKTRİNASI" DÖVRÜNDƏ QAZAXISTANDAKI VƏZİYYƏTİN AZƏRBAYCAN MƏTBUATINDA ƏKSİ ("KOMMUNİST" VƏ "XALQ QƏZETİ" NÜMUNƏSİNDƏ)

DOI: https://doi.org/10.36719/2708-065X/103/124-130

Elmi-siyasi ədəbiyyatlarda "Üçüncü dünya müharibəsi" adlandırılan informasiya mübarizəsi dövründə yaşamağımız, informasiya ötürücüləri arasında ən mühümü hesab edilən mətbuatla bağlı araşdırmaları günümüzün ən aktaul mövzularından birinə çevirmişdir. Bu baxımdan, hazırki məqalədə mətbuatın cəmiyyət yeri və rolu məsələsinin tarixi aspektdə, Azərbaycan SSR mətbuatı nümünəsində, araşdırılmasına cəhd ediləcəkdir. Xronoloji çərçivə olaraq, 1985-1991-ci illər -başqa sözlə, SSRİ-də Sinatra doktrinası" dövrü- seçilmişdir. SSRİ-nin son lideri Qorbaçov, eyni zamanda SSRİ-nin ilk və son prezidenti olmuşdur. Onun dövrü SSRİ-də islahatlar dövrü kimi tanınmaqdadır: ilk olaraq, aşkarlıq və sürətləndirmə, 1987-ci ildən isə yenidənqurma islahatları, ardınca mətbuat sahəsində bir sıra islahatlar həyata keçirildi. Ancaq bu islahatlar gözlənilən nəticəni vermədi, əksinə, SSRİ-nin hər tərəfində problemlər çoxaldı. Bu dövrdə Mərkəzi Asiya respublikalarında, o cümlədən, Qazaxıstanda, da dəyişikliklər baş verməkdə idi. Qazaxıstan SSRİ-nin özünəməxsus çəkisi ilə seçilən resublikalarından biri olmuşdur və bu baxımdan, siyasi sistemdə mühüm islahatların həyata keçirildiyi dövrdə Azərbaycan SSR mətbuatında onunla bağlı verilən xəbərlər də digər respublikalarla müqayisədə daha çox olmuşdur. Bu xəbərlər daha çox Azərbaycan SSR-in rəsmi mətbuat orqanı olan Kommunist (daha sonra Xalq qəzeti) qəzetində işıqlandırılırdı. Hazırki məqalədə bu xəbərlərin necə işıqlandırıldığı məsələsi araşdırılır.

Açar sözlər: M.S.Qorbaçov, "Sinatra doktrinası" dövrü, Qazaxıstan SSR, Kommunist qəzeti, Xalq qəzeti.

Giriş. 1985-1991-ci illərdə Azərbaycan mətbuatında mövcud vəziyyəti düzgün dəyərləndirmək üçün, o zaman Azərbaycanın İttifaq resublikalarından biri olduğu SSRİ-də mətbuatın ümumi vəziyyəti, məqsəd və vəzifələrinin nəzərdən keçirilməsi zəruridir. SSRİ-də mətbuat sovet ideologiyasını təbliğ və təşviq edən əsas qurum idi. Bütün yaşlar üçün xüsusi qəzet və jurnallar (məsələn, "Pravda", "Komsomolskaya pravda", "Pionerskaya pravda" və b.), həyatın bütün sahələri üzrə jurnallar (məsələn, "Elm və həyat", "Sovet idmanı", "Kino" və s.); SSRİ-ni təşkil edən respublikalarda yerli qəzet və jurnallar nəşr edilirdilər (məsələn, "Sovet Azərbaycanı", "Sovet Qazaxıstanı", "Sovet Özbəkistanı" və b.). Bütün redaksiyalarda "məktublar şöbəsi" fəaliyyət göstərirdi, bu şöbələrdə oxuculardan gələn şikayət və təkliflər araşdırılır, yeri gəldikcə "lazımi tədbirlər" görülürdü. SSRİ-nin sırf xaricdə təbliği məqsədilə də bir sıra qəzet və jurnallar nəşr edilirdi (məsələn, 80-ci illərin sonlarında 21 xarici dildə nəşr edilən "Sovet İttifaqı" jurnalı, "Novoye vremya", "Mejdunarodnaya jizn", "XX əsr və dünya" siyasi jurnalları, "Sovet hərbi icmalı", "Sovet qadını" və s. jurnallar). Eyni zamanda, SSRİ-də oxunan xarici mətbuat orqanları da mövcud idi ki, bunlar əsasən sosialist ölkələrinin mətbuat orqanları idilər.

SSRİ-də ümumilikdə, bütün dövrlərdə müəyyən nəşrlərə böyük tələbat özünü göstərirdi, lakin yenidənqurma illərində əhalinin mətbuata marağının hər zamankından daha çox artdığı müşahidə olunurdu. Bu baxımdan, 1985-1991-ci illərdə SSRİ-də həyata keçirilmiş islahatlar sırasında mətbuatla bağlı islahatlar da yer almışdı. 1986-cı ildə Aşkarlıq siyasətinə keçilməsi mətbuatda senzuranın bir qədər yumşalmasına səbəb olsa da, mətbuat islahatı digərləri ilə müqayisədə bir qədər geç həyata keçirildi. 12 iyun 1990-cı ildə SSRİ Ali Soveti "Mətbuat və digər kütləvi informasiya vasitələri haqqında" qanun qəbul etdi. Qanunda kütləvi informasiya vasitələrində senzuranın yolverilməz olduğu qeyd edilirdi. Lakin az sonra, 1991-ci ilin əvvəlində ölkədəki qeyri-sabit vəziyyətlə əlaqədar, televiziyada sen-

zura gücləndirildi. Moskvada 1991-ci il 19-21 avqust dövlət çevrilişi cəhdi zamanı partiya orqanları istisna olmaqla, bütün mətbuat orqanları qadağan edildi, Avqust ayının 22-də qərar ləğv edildi. 24 oktyabr 1991-ci ildə SSRİ İnformasiya və Mətbuat nazirliyinin "Kütləvi informasiya vasitələrində dövlət sirrinin müdafiəsi agentliyi"nin ləğv edilməsi ilə SSRİ-də senzura tamamilə aradan qaldırıldı.

Hazırki məqalədə, belə bir qarışıq dövrdə Azərbaycan SSR mətbuatındakı vəziyyətin -Qazaxıstanda baş verən hadisələrin respublika mətbuatında necə işıqlandırıldığı nümunəsində- araşdırılmasına cəhd edilir.

SSRİ-də "Sinatra doktrinası" - "Qorbaçov dövrü". M.S.Qorbaçov 1985-ci ildə hakimiyyətə gəldikdən dərhal sonra həm daxili, həm də xarici siyasətdə bir sıra dəyişikliklər etdi, islahatlar həyata keçirdi. "Sinatra doktrinası" mahiyyəti etibarilə M.S.Qorbaçov dövründə SSRİ-nin Şərqi Avropa siyasətinə aid edilir. Ondan əvvəl Sovet İttifaqının müdaxiləçi münasibətinin arxasında 1964-1982-ci illərdə Kommunist Partiyasının baş katibi olmuş Leonid İliç Brejnevin adını daşıyan "Brejnev doktrinası" adlı siyasi baxış dayanırdı. Hətta bu dövr "Dəmir pərdə" dövrü də adlandırılırdı [19]. Belə adlanmasının səbəbi isə, 1956-cı ildə Macarıstanda, 1968-ci ildə Çexoslovakiyada daha müstəqil sistem yaratmaq cəhdlərinin Sovet İttifaqı tərəfindən hərbi gücdən istifadə etməklə yatırılmasıydı. 1980-ci illərdə Sovet İttifaqı Şərq Bloku ölkələrinə təzyiqlərini azaldıb, bu ölkələrə daxili işlərində öz qərarlarını müəyyən etmək imkanı verdi. Sovet İttifaqı Xarici İşlər Nazirliyinin mətbuat katibi Gennadi Gerasimov mətbuat konfransında "bu, bizim yolumuzdur" deyərək, Şərqi Avropa ölkələrində baş verən inqilablarla bağlı məsələlərə münasibətdə Qorbaçov administrasiyasının "bu ölkələr öz qərarlarını özləri verəcəklər" niyyətini açıqlamışdı [16, s.54]. Bundan sonra Frenk Sinatranın məşhur "*My way*" ("Mənim yolum") mahnısına istinadən Qorbaçov dövrü "Sinatra doktrinası" dövrü kimi adlandırılmağa başlandı.

1985-1991-ci illərdə Qazaxıstanda vəziyyət. SSRİ-nin daxili siyasətində həyata keçirilən dəyişiklik və islahatlar ittifaq resublikalarından da yan keçmirdi. Qazaxıstan da bu dövrdə böhrandan zərər çəkən respublikalardan olmuşdur. Hətta, Sov.İKP MK-nin 1986-ci il tarixli qərarına narazılığını bildirməklə, SSRİ-də rəsmi səviyyədə "etiraf edilən" ilk münaqişənin baş verdiyi respublika olmuşdur. Bu qərarla, Qazaxıstan KP Birinci katibi Dinməhəmməd Əhməd oğlu Kunayev vəzifəsindən azad edilərək, yerinə Gennadi Kolbin seçilmiş və bu, böyük narazılığa səbəb olmuşdu [5, s.221]. Qazax dilində dekabr ayı mənasını verən "*Jeltoksan*" və ya *Alma-Ata hadisələri* adı ilə bilinən hadisələr başlayanda, etirazçıların Kommunist Partiyası Mərkəzi Komitəsinə göndərilən məktublarında və mitinqlərdə nümayiş etdirdikləri pankartlarda *"Kolbin, Rusiyaya qayıt"*, *"Qazaxıstan qazaxlarındır"* kimi şüarlar öz əksini tapmışdı. Bu etirazlar təhlükəsizlik qüvvələri tərəfindən güc tətbiq edərək yatırılmış və iki ay müddətində Alma-Ataya giriş məhdudlaşdırılmış, beləcə hadisələr barədə məlumat əldə etmək istəyən xarici jurnalistlər və mətbuat nümayəndələri yalnız 2 ay sonra, 19 fevral 1987-ci ildə şəhərə giriş üçün icazə veriləndən sonra Alma-Ataya daxil olmuşdular [6, s.76].

Bundan başqa, ümumilikdə Qazaxıstanda vəziyyət, bütünlükdə SSRİ-də olduğu kimi, böhranlı olaraq qalmaqda idi. Respublikanın vəziyyətini daha da ağırlaşdıran bir məqam isə, SSRİ xalq təsərrüfatı sistemində ona daha çox xammal bazası kimi baxılması idi: Qazaxıstan, Mərkəzi hökumətin düzgün olmayan siyasəti nəticəsində dotasiya hesabına yaşayan respublika vəziyyətində qalmaqda idi [27, s.13-14]. 1989-cu ildə Nursultan Nazarbayev Qazaxıstan KP MK Birinci katibi təyin edildikdən sonra bir sıra islahatlar həyata keçirmişdi ki, onların arasında ilk olanlardan biri 22 sentyabr 1989-cu ildə qazax türkcəsinə Qazaxıstanın rəsmi dil statusunun verilməsi olmuşdur. Ümumiyyətlə N.Nazarbayev Qazaxıstanın hüquqlarını müdafiə edən və maraqlarını təmin edən bir rəhbər olmuşdur. O, Qazaxıstanın Moskvadan deyil, Alma-Atadan idarə edilməsinin vacibliyini bildirərək, ölkəsinin daha müstəqil qərarlar almalı olduğunu düşünürdü. 1990-cı ilin mart ayında SSRİ-də prezident idarəçiliyinə keçilməsinin ardınca, Qazaxıstan SSR Ali Soveti 24 aprel 1990-cı il tarixdə "Qazaxıstan SSR Prezidenti vəzifəsinin təsis edilməsi və Qazaxıstan SSR Konstitusiyasına (Əsas Qanununa) əlavə və dəyişikliklərin edilməsi haqqında" Qanun qəbul etdi. Həmin qərarla N.Nazarbayev Qazaxıstan SSR Prezidenti seçildi [27, s.16]. 1991-ci il 19-21 avqustda Moskvada dövlət çevrilişi cəhdindən sonra, sentyabr ayında Qazaxıstan Kommunist partiyasının ləğv edilməsi qərarı qəbul edildi. Oktyabr ayının 25-də "Qazaxıstan Respublikasının dövlət suverenliyi haqqında" bəyannamə qəbul edildi [27, s.16]. Bundan sonra, 1991-ci il dekabr ayının 1-də keçirilən ümumxalq seçkilərində N.Nazarbayev Qazaxıstan Respublikasının

prezidenti seçildi. Dekabr ayının 10-da Qazaxıstan SSR adı dəyişdirilərək Qazaxıstan Respublikası adlandırıldı, 16 dekabrda Qazaxıstanın dövlət müstəqilliyi elan edildi [28, s.45].

Qazaxıstanda baş verən hadisələrin Azərbaycan SSR mətbuatında əski. Yenidənqurma illərində digər respublikalarda olduğu kimi, Azərbaycanda da nəşr olunan qəzet və jurnalların sayı artmağa başlamışdı. Lakin bu, bir qədər sonrakı illərə aid idi. İslahatların ilk illərində senzuranın, inzibati-amirlik sisteminin mövcudluğu özünü açıq şəkildə göstərməkdə idi. Bu baxımdan, məybuatda dərc olunan xəbərlərdə Mərkəzi hökumətin maraqlarının əsas götürülməsi heç də təəccüblü deyil. Qazaxıstanda baş verən hadisələrə münasibətdə də belə olmuşdur. Qazaxıstanla bağlı dərc olunan xəbərlər araşdırılanda siyasi xarakterli məlumatlara yer verilməmiş, 1989-cu ilə qədər verilən xəbərlər daha çox sosial və iqtisadi xarakterli olmuşdur.

Xəbərləri illər üzrə xronoloji ardıcıllıqla izlədikdə aşağıdakı mənzərə ilə rastlaşırıq:

1985-ci ildə "Kommunist" qəzətində dərc olunan xəbərlər əsasən mədəniyyət sahəsində və əməkdaşlıq barədə olmuşdur. Qəzetin 8 fevral 1985-ci tarixli sayında Azərbaycan Dövlət rəsm qaleriyasında "Sovet Qazaxıstanı rəssamlarının rəngkarlığı" sərgisinin keçirilməsi ilə bağlı məlumat verilmişdir [11, s.3]. Daha sonra ölkənin hər yerində keçirilən 1 may bayramında, Qazaxıstanın paytaxtı Alma-Atada keçirilən bayram nümayişində Qazaxıstan Komunist Partiyasının Birinci katibi D.Ə.Kunayevin nümayiş iştirakçılarını 1 may Əmək günü münasibətilə təbrik etdiyi və bu münasibətlə "Kommunist" qəzetində təbrik xəbəri dərc olunmuşdur [14, s.1; 15, s.1]. II Dünya muharibəsində Qazaxıstandan Sovet İttifaq Qəhrəmanı adı almış qazaxların igid qızı Aliyə Moldaqulova adına çəkilən "Snayper Aliyə" adlı filmdə Azərbaycanın məşhur aktyoru Ceyhun Mirzəyevə rol təklif edilməsiylə bağlı bir xəbər də dərc olunmuşdur [4, s.2]. 1985-ci ilin avqust ayında Azərbaycan və Qazaxıstan arasında ənənə halını almış məhsul yığımı zamanı azərbaycanlı mexanizatorlar Qazaxıstanın müxtəlif bölgələrində qazaxlı qardaşlarına dəstək olmağa gəlmələri barədə xəbər dərc olunmuşdu. Bu köməklik Qazaxıstanın xam torpaqlarının istifadəyə verildiyi 30 il müddətinə davam etmişdi. 1986 və 1987-ci illərdə də bu köməklik artaraq davam etmişdir [8, s.2; 9, s.1; 26, s.2].

SSRİ-ə daxil olan bütün respublikalarda hər il "Böyük Oktyabr" inqilabı bayram olaraq qeyd olunurdu. 1986-cı ildə isə qəzetin 8 noyabr tarixli nömrəsində Qazaxıstan SSR-də bu inqilabın 69-cu il dönümünün qeyd edilməsilə bağlı xəbər dərc olunmuşdu. Xəbərin davamında Qazaxıstanın paytaxtı Alma-Atada keçirilən tədbirdə Sovet ittifaqı Komunist partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü, Qazaxıstan Komunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi D.Ə.Kunayevin bayram şənliklərinin iştirakçılarını təbrik etdiyi barədə məlumat da verilmişdi [14, s.1; 15, s.1]. 1986-ci ilə aid bir digər xəbər isə avqust ayında Qazaxıstanın paytaxtı Alma-Atada keçirilmiş boks üzrə SSRİ çempionatında ittifaq dövlətlərindən iki yüz nəfərdən çox boksçu ilə əlaqədər idi. 1985-1991-ci illərdə SSRİ-də müxtəlif idman yarışları və çempionatları Qazaxıstanda keçirilmişdi. Bu çempionatlarda Azərbaycanın müxtəlif şəhərlərindən -Bakı, Kirovabad (Gəncə), Sumqayıt- idmançılar təmsil etmişdilər [3, s.2]. Həmçinin, qazaxıstanlı idmançılar 1986-ci ildə Azərbaycanda keçirilən "Böyük Vətən müharibəsi"nin 40 illiyinə həsr olunmuş V Ümumittifaq kənd oyunlarında oxatma üzrə ittifaq respublikaları arasında ikinci yerə, güləş üzrə yarışlarda birinci yerə və samboçuların yarışlarında da uğurlar əldə edərək yarışlarda fərqlənmişdilər. "Kommunist" qəzetində bütün bu hadisələr ətralı işıqlandırılırdı [22, s.2; 23, s.3; 24, s.2].

"Kommunist" qəzetinin 8 may 1987-ci ildə nəşr olunan xəbərində Mərkəzi Qazaxıstanda kömür mədəninin aşkara çıxarılmasının 150 illiyi və Karaqanda vilayətinin yaranmasının yarım əsrlik yubileyi münasibətilə nəşr olunmuş "Karaqanda. Karaqanda vilayəti" ensiklopediyası satışa buraxıldığı qeyd edilmişdi [25, s.2]. Dekabr ayının 14-18-də Sov.İKP MK Siyasi Burosunun üzvü SSRİ Nazirlər Sovetinin sədri N.İ.Rıjkov Qazaxıstana rəsmi səfərdə olmuş və bu səfərlə bağlı xəbərdə Rıjkovun respublikanı gəzdiyi, bir sıra sənaye müəssisələrini ziyarət etdiyi qeyd edilmişdi [10, s.2].

1987-ci ildə SSRİ-də "Qanunçuluğu möhkəmlətmək" şuarı altında ittifaq respublikalarındaki qanunsuzluqların və özbaşınalıqların qarşısının alınması haqqında ümumi müzakirə keçirilmişdi. Qazaxıstan, Mərkəzi Asiya və Zaqafqaziya respublikaları Daxili İşlər Nazirlikləri rəhbər işçilərinin birgə seminar-müşavirəsi qanun qüvvəsini təsirli inandırma ilə mükəmməl əlaqələndirilməli, demokratiyanın və aşkarlığın genişlənməsi şəraitində Daxili İşlər Nazirliyi sisteminin bütün bölmələrinin fəaliyyətinin əsaslı sürətdə yenidən qurması kimi məsələlərə həsr olunmuşdur. Müşavirədə qeyd edilmişdir ki,

daxili işlər orqanları cinayətkarlığa, alkoqolizmə, narkomanlığa qarşı mübarizəni gücləndirmişlər. Lakin buna baxmayaraq bütün hüquq muhafizə orqanlarının fəaliyyəti hələ də kifayət qədər dəqiq əlaqələndirilmir, milis orqanlarının bir- biri ilə və partiya, həmkarlar ittifaqı, komsomol təşkilatları, əmək və tədris kollektivləri ilə qarşılıqlı fəaliyyəti zəif təşkil edilmişdir. Müşavirədə həmçinin 1986-ci il dekabr ayındaki Jeltoksan hadisələrinə toxunaraq bildirilirdi ki, Alma-Atada millətçi əhval-ruhiyyəli qrupların cəmiyyətə zidd hərəkətlərinin qarşısını ala bilməməsinin səbəblərindən biri olaraq qarşılıqlı fəaliyyətin zəif olması göstərilmişdir [7, s.2]. Qeyd edək ki, bu xəbərdə ilk dəfə 1986-cı il hadisələri ilə bağlı məlumat verilirdi.

1988-ci ildən başlayan Ermənistan-Azərbaycan arasındakı gərginlikdə orta yolu tapmağa çalışan ölkələr arasında Qazaxıstan da var idi. 1990-cu il Qazaxıstan SSR Ali sovetinin yeni çağırışında Qazaxıstan SSRİ Ali Sovetinə, müttəfiq respublikaların Ali sovetlərinə, SSR İttifaqının bütün xalq deputatları Sovetlərinə müraciət qəbul olunmuşdur. Müraciətdə bildirilirdi ki, «*Qardaş müttəfiq respublikaların əsl suverenliyə can atdıqlarına tərəfdar çıxaraq, Qazaxıstan SSR Ali Soveti eyni zamanda ölkənin müxtəlif regionlarında qeyri-sabit vəziyyətlə əlaqədar dərin təşvişini və narahatlığını ifadə edir. Əminik ki, ölkənin hər hansı regionunun iqtisadi, sosial, milli-mədəni inkişafının bütün problemləri ancaq SSR Konstitusiyası və respublikaların konstitusiyaları, qüvvədə olan qanunlar əsasında həll edilməlidir. Sizi ümumi evimizdə vəziyyətin sabitləşdirilməsi üçün, hər bir sovet adamının həyatının, şərəf və ləyaqətinin qorunması üçün bütün nüfuzunuzdan və səlahiyyətinizdən istifadə etməyə çağırırıq».* Beləliklə, bu məsələdə orta yol tapmağa çalışılırdı [18, s.2].

1989 və 1990-ci illərdə də mədəniyyət xəbərləri dərc olunmaya davam etmişdir. Bunlardan biri 1989-cu ildə "Kommunist" qəzetində daha bir mədəniyyət xəbəri dərc olunmuşdur. Xəbərdə Kumanqazı adına Alma-ata Dövlət Konserva-toriyasının professoru, türk xalqları mədəniyyətinin tədqiqatçısı Tamara Əlibaqiyevanın uyğur mədəniyyəti və tarixindən bəhs edən "On iki uyğur muğamı" monoqrafiyası işıq üzü gördüyü qeyd edilmişdi [13, s.2]. 1990-ci ildə Qazaxıstanda Azərbaycan kitab günlərinin təşkil olunduğu və Nizami Gəncəvinin 850 illik yubileyi ilə əlaqədar xüsusi stend qurulduğu da ayrı ayrılıqda qeyd edilmişdi [2, s.3].

27 aprel 1990-ci ildəki xəbərdə *«Qazaxıstan KP MK-də müzakirə edilən "Qazaxıstan SSR prezidentlik vəzifəsinin təsis olunması və Qazaxıstan SSR Konstitusiyasına dəyişikliklər və əlavələr" haqqında qanun Qazaxıstan SSR Ali Sovetinin sessiyasında qəbul edilmişdi. Bu qanun dəyişikliyi müttəfiq respublikaların həqiqi suverenliyi, bərabərliyi əsasında sovet federasiyasının yeniləşməsi ilə açıqlayırdılar. Plenum iştirakçıları Qazaxıstan KP MK-in birinci katibi N.A.Nazarbayevin respublika prezidenti vəzifəsinə namizədliyini tövsiyə etdilər. Ali sovetin sessiyasında N.A.Nazarbayev Qazaxıstan SSR-in ilk prezidenti seçildi. Nazarbayev eyni zamanda Qazaxıstan KP MK-in birinci katibi vəzifəsində qalaraq Qazaxıstan SSR Konstitusiyasının ona verdiyi hüquqla iki vəzifəni icra etməyə haqq qazandı»* yazılmışdı [12, s.1]. Artıq bu dövrdən başlayaraq, Qazaxıstanda baş verən siyasi proseslərlə bağlı xəbərlər də yer almağa başlamışdı.

27 avqust 1991-ci il tarixindən başlayaraq, Ermənistanın Azərbaycana olan ərazi iddialarına münasibətdə Mərkəzi hökumətin mövqeyinə etiraz olaraq, rejimin rəsmi mətbuat orqanı olan "Kommunist" qəzetinin nəşrini dayandırıldı. Az sonra qəzet "Xalq qəzeti" adı ilə dərc olunmağa başlandı. Qarabağda baş verən gərginliyi həll etmək üçün Qazaxıstan prezidenti N.Nazarbayev və Rusiya prezidenti B.Yeltsin 20-24sentyabrda Azərbaycanda rəsmi səfərdə olmuşdu. Suveren respublika rəhbərlərinin danışıqları zamanı Qarabağ düyününü açmaq məqsədilə yönəldilmiş təkliflər paketini müzakirə etmək nəzərdə tutulmuşdu. Həmçinin suveren respublika rəhbərləri Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinə yola düşməsi haqqında qəzetdə xəbər verilmişdi [17, s.1].

1991-ci ildə artıq xəbərlərin çoxunda SSRİ-nin son günlərini yaşadığı hiss olunurdu. SSRİ-in tərkibindəki müttəfiq dövlətlər ittifaq müqaviləsi üçün hazırlıqlar aparırdı. Qazaxıstan parlamentinin dördüncü sessiyasında deputatlar bu məsələni müzakirə edərək yalnız müəyyən dəyişikliklərdən sonra müqaviləni imzalayacaqlarını bildirmişdilər [20, s.3]. Lakin Qazaxıstan KP MK-in plenumu İttifaq müqaviləsinin imzalanmasının yubadılmasının ölkədə baş verən mürəkkəb sosial-iqtisadı vəziyyəti daha da çətinləşdirə biləcəyinə olan qorxusu səbəbindən onun tezliklə imzalanmasına tərəfdar olduqlarını ifadə etmişdi [21, s.1].

"Xalq qəzeti"nin 24 dekabr 1991-ci ildə nəşr olunan nömrəsində artıq SSRİ-in ömrünü başa vurduğu qeyd edilirdi. Eyni zamanda yeni yaranan Müstəqil Dövlətlər Birliyi hansı vədləri verir sualına da cavab verilmişdir: *"Keçmiş Sovet İttifaqının üzvlərindən təşkil edilmiş MDB, onu imzalayan dövlətlərə bir sıra öhdəliklər təmin edirdi. Bu öhdəliklərə bir-biri arasında münasibətlərdə dövlət suverenliyinin və suverən bərabərliyin, öz müqəddəratını təyin etmək kimi ayrılmaz hüququn, hüquq bərabərliyi və bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinin qarşılıqlı sürətdə tanınması və onlara hörmət edilməsi, iqtisadi və hər hansı digər təyziq metodlarından imtina olunması, mübahisələrin dinc yolla aradan qaldırılması, insan hüquqlarına və azadlıqlarına, o cümlədən milli azlıqların hüquqlarına hörmət bəslənməsi, öhdəliklərin və hamı tərəfindən qəbul edilmiş digər beynəlxalq hüquq vasitələri və normalarının vicdanla yetirilməsi əsasında inkişaf etdiriləcək demokratik hüquqi dövlətlər qurmağa çalışaraq; bir birinin ərazi bütövlüyünü və mövcud sərhədlərin pozulmaz olduğunu qəbul edərək və bunlara hörmət edərək; dərin tarixi kökləri olan dostluq, mehriban qonşuluq və qarşılıqlı sürətdə faydalı əməkdaşlıq münasibətlərini möhkəmlətməyin xalqların mənafelerinə cavab verdiyini, sülh və təhlükəsizlik işinə xidmət etdiyini bildirərək; vətəndaş sülhünün və millətlərarası həmrəyliyin saxlanılması üçün özlərinin məsuliyyətini dərk edərək; Müstəqil Dövlətlər Birliyi yaradılması haqqında sazişin məqsədlərinə və prinsiplərinə tərəfdar olaraq aşağıdakıları bildirirlər; Birliyin iştirakçıları bərabərlik əsasında yaradılan və birliyin iştirakçıları arasında sazişlərlə müəyyənləşdiriləcək qaydada fəaliyyət göstərən əlaqələndirici təsisatlar vasitəsilə hüquq bərabərliyi prinsipi əsasında qarşılıqlı fəaliyyət göstərəcəklər"* [1, s.1].

Müstəqil Dövlətlər Birliyinin yaranması ilə Sovet Sosialist Respublikalar İttifaqı öz varlığını itirmiş oldu. Birlik üzləri yuxarıda verilən bəyannamənin prinsiplərinə sözsüz əməl etmə vədi verdilər. Bəyannaməni Azərbaycan, Belarusiya, Qazaxıstan, Ermənistan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna imzaladılar [1, s.1]. Qeyd edək ki, Azərbaycan ölkədə gedən siyasi qeyri-sabitliyə görə 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Birliyə üzv olub.

Nəticə. 1985-1991-ci illər arasında "Kommunist", daha sonra "Xalq qəzeti" adlanan Komunist rejimin rəsmi qəzeti olan və senzuranın yüksək dozada hiss edildiyi bu qəzetdə Qazaxıstanla əlaqəli, xüsusən də 1985-1989-cu illər arasındaki nömrələrində, siyasi xəbərlərə demək olar ki, yer verilmir. "Yenidənqurma və Aşkarlıqla" birlikdə mətbuatda da dəyişikliklər müşahidə olunmasına baxmayaraq, qəzet daha çox rəsmi səfərlər, bayramlar, məhsul yığımı zamanı yardımlaşma və ittifaqın üzlərinin rəsmi fərman və qanunlarını dərc etmişdir. Əldə etdiyimiz ümumilikdə 39 məlumatın 17-si ictimai-siyasi, 13-ü sosial-iqtisadi, 9-u elm və mədəniyyət, idman xəbərləri olmuşdur. Sərt totalitar rejim zamanı daha artığını gözləmək də yersiz olardı. Belə ki, SSRİ siyasi sistemində dəyişikliklərə (o cümlədən müstəqil və müxalif mətbuat orqanlarının yaranması, senzuranın ləğvi və s.) gec keçilməsi mətbuatın dövlət nəzarətində olmasına və mövcud rejimin təhlükəsizliyi çərçivəsində fəaliyyət göstərməsinə səbəb olmuşdur. Lakin bununla birlikdə qeyd edilməlidir ki, qəzet təhlil edilərkən, Azərbaycanın SSRİ-in tərkibində olan türk respublikalarından Qazaxıstan SSR-lə daha sıx əlaqələrinin qurulduğu aşkar edilmişdir.

ƏDƏBİYYAT

1. Alma-Ata bəyannaməsi // Xalq qəzeti. 1991, 24 dekabr. -s.1.
2. Azərbaycan kitabı Qazaxıstanda // Kommunist. 1990, 16 avqust. -s.3.
3. Fəxri kürsüdə // Kommunist. 1986, 9 mart. -s.2.
4. Həmyerlimiz "Qazaxfilm"də" // Kommunist. 1985, 22 avqust. -s.2.
5. Кан, Г.В. История Казахстана: Учебник. 4-е изд., перераб. и доп. - Алматы: Алматыкітат баспасы, - 2011. - 312 с.
6. Kara, A. Kazakistan'da 1986 Almatı Olaylarının İçyüzü ve Etkileri / YLT / - İstanbul, 1997. - 195 s.
7. Qanunçuluğu möhkəmlətməli // Kommunist. 1987, 15 mart. -s.2.
8. Qazaxıstana, dostluq biçininə // Kommunist. 1985, 3 avqust. -s.1.
9. Qazaxıstana, dostluq biçininə // Kommunist. 1986, 2 avqust. -s.1.
10. Qazaxıstana Səfər // Kommunist. 1987, 20 dekabr. -s.2.
11. Qazaxıstan lövhələrdə // Kommunist. 1985, 8 Fevral - s.3.
12. Qazaxıstan prezidenti seçilmişdir // Kommunist. 1990, 27 aprel. -s.1.

13. Muğam haqqında yeni tədqiqat // Kommunist. 1989, 26 sentyabr. -s.2.
14. Respublikalarda şənliklər // Kommunist. 1985, 1 may. -s.1.
15. Respublikalarda şənliklər // Kommunist. 1986, 8 noyabr. -s.1.
16. Roger E. Kanet, Alexander V. Kozhemiakin, The Foreign Policy of the Russian Federation, Macmillan Press, London 1997, 200 s.
17. Rusiya və Qazaxıstan prezidentləri Azərbaycanda // Xalq qəzeti. 1991, 21 sentyabr. -s.1.
18. Sesiyada fasilə elan edilmişdir // Kommunist. 1990, 29 aprel. -s.2.
19. Sinatra Doktrini nedir? – URL: https://web.archive.org/web/20110601171100/http://doktrin.net/sinatra-doktrini-nedir [15.12.2023].
20. Son saatda // Kommunist. 1991, 26 iyun 1991. -s.3.
21. Son saatda // Kommunist. 1991, 23 iyul. -s.1.
22. Ümumittifaq kənd oyunlarında // Kommunist. 1985, 19 avqust 1985. -s.2.
23. Ümumittifaq kənd oyunlarında // Kommunist. 1985, 20 avqust. -s.2.
24. Ümumittifaq kənd oyunlarında // Kommunist. 1985, 22 avqust. -s.2.
25. Vətənimizdə // Kommunist. 1987, 8 may -s.1.
26. Zəmilər səslənəndə… // Kommunist. 1987, 22 avqust. -s.2.
27. Назарбаев, Н.А. Избранные речи. Том 1. 1989-1991 гг. Астана, ИД «Сарыарка», - 2009, - 548 с. [Электронный ресурс] - URL: https://nazarbayev.kz/sites/default/files/pagefiles/2019-06/db40af93984e971b98360a38f2a865ac.pdf [15.12.2023].
28. Казахстан. Национальная энциклопедия / Гл. ед. Б.Аяган. 1 Том. А-В. Алматы: Главная редакция «Казак энсиклопедиясы», - 2004. – 560 с. - URL: https://upload.wikimedia.org/wikipedia/commons/6/6a/Kazakhstan_National_encyclopedia_%28ru%29_-_Vol_1_of_5_%282004%29.pdf [15.12.2023].

ФАТЬМА БЕТЮЛЬ АЙДЕМИР БАШ
Докторант кафедры Истории тюркских народов Бакинского Государственного Университета

ОТРАЖЕНИЯ СИТУАЦИИ В КАЗАХСТАНЕ В ПЕРИОД "ДОКТРИНЫ СИНАТРА" В ПРЕССЕ АЗЕРБАЙДЖАНА (на основе газет "КОММУНИСТ" И "ХАЛГ ГАЗЕТИ")

Последний руководитель СССР М.С. Горбачев одновременно был первым и последним президентом СССР. Его период известен как период реформ в СССР. В период его правления сначала были реализованы политика гласность и ускорение, а с 1987 года - перестройка. Однако эти реформы не принесли ожидаемых результатов, а проблемы множились по всему СССР. Кроме того, политика жесткой силы СССР в Восточной Европе также уменьшилась, М.С.Горбачев заявил, что «они (страны Восточной Европы - *автор*) сами за себя будут принимать решения». В соответствии с песней известного певца Фрэнка Синатры относительно слов «Я сделал это по-своему», политика этого периода СССР вошла в историю как «период доктрины Синатры». В этот период изменения, произошедшие в Центральной Азии, затронули также и Казахстан. Экономические, социальные и политические изменения Казахстана широко освещались в прессе Азербайджана, сначала в газете «Коммунист», позже «Халк газети». В статье предпринята попытка осветить опубликованные в прессе Азербайджана новости о Казахстане.

Ключевые слова: М.С.Горбачев, доктрина Синатры, Казахская ССР, газета «Коммунист», «Халк газети».

FATMA BETUL AYDEMIR BASH
PhD student of Baku State Unıversity

THE REFLECTİONS OF THE SITUATION IN KAZAKHSTAN DURING THE "SINATRA DOCTRINE" PERIOD IN THE AZERBAIJAN PRESS ("KOMMUNIST" AND "XALQ" NEWSPAPER")

Gorbachev, the last leader of the USSR, was the first and last president of the USSR at the same time. His period is known as the period of reforms in the USSR. First, during his period, glasnost and

acceleration, and from 1987, perestroika reforms were implemented. However, the reforms did not bring the expected results, and problems multiplied all over the USSR. In addition, the strength of the USSR in Eastern Europe also decreased, and Gorbachev announced that "They will make their own decisions" for them. Famous singer Firank Sinatra's statement referring to the words ``I did it my way" in his song was recorded in history as the Sinatra doctrine. During this period, the changes that took place in Central Asia were prominent and also Kazakhstan was one of them. The Jeltoqsan (Alma-Ata) attracted attention because it was the first republic in the USSR where discontent took place. Kazakhstan was at the top in terms of economy and land in the USSR. Relations between Azerbaijan SSR and Kazakhstan SSR have always been important in this regard. The reforms of the Gorbachev era and the relations between the two republics occupy an important place in the media. Economic, social and political changes of Kazakhstan were widely covered in the Communist (later People's) newspaper, the official newspaper of the Azerbaijan SSR. In the article, an attempt was made to highlight the news published in the Communist newspaper about Kazakhstan.

Keywords: M.S.Gorbachev, Sinatra Doctrine, Kazakh SSR, newspaper “Kommunist”, “Xalg gazeti”.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 dekabr 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 dekabr 2023-cü il.
Rəyçilər: t.ü.f.d. Sevinc Ruintən, t.e.d. İsmayıl Məmmədov.